**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQRAR SAHƏDƏ TƏDARÜK SİSTEMİNİN İNKİŞAFI VƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Həcər Əjdər qızı Orucova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Pəri Əmirəhməd qızı Həsənova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sevda Binyət qızı Məmmədova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərviz Səməd oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

**Dissertasiya şurasının sədri:** İqtisad elmləri doktoru, professor

____________ **Nazim Müzəffərli (İmanov)**

**Dissertasiya şurasının elmi katibi:** iqtisad üzrə fəlsəfə doktoru

____________ **Sevda Məmməd qızı Seyidova**

**Elmi seminarın sədri:**

iqtisad elmləri doktoru, professor

____________ **Elşad Yaqub oğlu Məmmədov**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli iqtisadiyyatın mühüm və prioritet sahələrindən biri hesab edilən aqrar sahənin bütün dövrlərdə olduğu kimi hazırda da inkişaf etdirilməsi və səmərəli dövlət tənzimlənməsi ən vacib məsələlərdən hesab olunur. Aqrar sahədə formalaşan tələb, təklif proseslərinin optimal şəkildə müəyyən olunaraq, uyğun prioritet inkişaf istiqamətlərinin düzgün işlənib hazırlanması və həyata keçirilməsi çox zəruridir. Aqrar sahənin dövlət tənzimlənməsində kəmiyyət tərəfi ilə yanaşı, keyfiyyət göstəricilərinə də diqqət ayrılması mühüm şərtdir. Çünki bunu, həm də obyektiv bazar qanunları tələb edir.

Məhz buna görə də dövlət bu və ya digər dərəcədə, daimi olaraq kənd təsərrüfatının səmərəli və məqsədyönlü inkişafının təmin olunması istiqamətində davamlı olaraq məqsədəuyğun siyasət həyata keçirir.

Bütövlükdə isə aqrar sahənin məqsədyönlü tənzimlənməsinin obyektiv zəruriliyini, əsas etibarilə onun müxtəlif təbii-iqtisadi səbəblərdən baş verə biləcək böhranlı vəziyyətə düşə bilmə ehtimalı ilə də əlaqələndirmək olar. Qeyd edək ki, aqrar sahənin iqtisadi tənzimlənməsində dövlətin stimullaşdırıcı rolunun daha da gücləndirilməsi, bu sahənin özünəməxsus xüsusiyyətlərinin mütləq şəkildə nəzərə alınmasını zəruri edir. Bu baxımdan, ölkəmizdə kənd təsərrüfatının regional xüsusiyyətləri, eyni zamanda müxtəlif təbii-iqlim şəraitinə malik olan bölgələrdə məhsul istehsalçılarının əhəmiyyətli dərəcədə təbii amillərdən asılılığı, aqrar istehsal prosesinin mövsümi xarakter daşıması və digər bu yönümlü proseslər dediyimiz cəhətlərdən hesab olunur.

Müşahidələr onu göstərir ki, dövlətimizin qeyri-neft sektorunun inkişafına üstün əhəmiyyət verdiyi bir şəraitdə, aqrar sahənin inkişafı da (regionların inkişaf proqramlarının nəticəsinə əsasən) müşahidə olunmaqdadır.

Həmçinin keyfiyyət yönümlü işlərin aparıldığı hazırkı şəraitdə kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılması, onların mövcud keyfiyyət səviyyəsinin yüksəldilməsi, xüsusən də əksəriyyəti mikro, kiçik və orta istehsalçılardan ibarət olan insanların maliyyə imkanlarını yaxşılaşdırmaq üçün bu sahədə səmərəli tədarük sisteminin məqsədyönlü şəkildə formalaşdırılaraq inkişaf etdirilməsi zərurət kəsb edir.

Yuxarıda göstərilənlərlə bağlı olaraq, mövcud məsələnin həlli istiqamətində həyata keçirilən müvafiq tədbirlərin əhəmiyyətinin araşdırılması, həmçinin onun mahiyyəti və məzmun elementlərinin dərindən öyrənilməsi sahəsində yeni metodoloji yanaşmanın işlənib hazırlanması böyük əhəmiyyət kəsb edir.

Bütün bu göstərilənlər dissertasiya mövzusunun işlənib hazırlanmasını zəruri etmişdir.

Aparılan araşdırmalardan göründüyü kimi, tədqiq etdiyimiz problemin müxtəlif nəzəri-metodoloji, həmçinin tətbiqi xüsusiyyətləri həm yerli, həm də xarici ölkə alimlərinin maraq dairəsində olduğu üçün, vaxtilə, daha doğrusu, keçmiş iqtisadi sistemdə bu istiqamətdə müxtəlif tədqiqat işləri aparılmışdır. Lakin, aqrar sahədə aparılan islahatlar və struktur dəyişiklikləri nəticəsində bu məsələnin həlli nisbətən arxa plana keçmişdir. Bununla yanaşı, müxtəlif vaxtlarda ölkəmizin tanınmış iqtisadçı alimlərindən Ş.M.Muradov, İ.H.İbrahımov, E.R.İbrahımov, E.A.Qulıyev, A.T.Əhmədov, G.Ə.Gənciyev, Ə.Ç.Verdiyev, İ.H.Alıyev, Ş.Ə.Cəbrayılov, V.M.Niftullayev, İ.Ş.Qarayev, Ə.S.Qasımov, N.Ə.Qasımov, H.A.Xəlilov, V.T.Novruzov, R.T.Həsənov, R.Ə.Balayev, M.C.Hüseynov, V.Ə.Qasımlı və başqaları göstərilən problemin müxtəlif cəhətlərini tədqiq edərək, məsələnin daha səmərəli və modern yönümlü həlli istiqamətində mühüm əhəmiyyət kəsb edən bir sıra maraqlı təkliflər irəli sürmüşlər.

Eyni zamanda yaxın və uzaq xarici ölkələrin Y.İ.Aqirbov, A.M.Babaşkina, N.S.Belkina, V.D.Qonçarov, L.V.Kalyagina, N.A.Kovalenko, N.Y.Kovalenko, İ.D.Kotlyarov, N.A.Popov, Q.A.Petryanova, V.Q.Fyodrov, N.V.Fyodrova, Y.A.Lixovtsova, İ.A.Minakov, A.N.Romanov, İ.İ.Stolyarov, N.A.Serova, Q.İ.Şmelyev kimi bu və başqa tanınmış alimlərin əsərlərində də aqrar sahədə tədarük sisteminin təşkili, tənzimlənməsi və həmçinin, təkmilləşdirilməsi problemləri tədqiq olunmuşdur.

Bununla yanaşı qeyd etmək lazımdır ki, yuxarıda adları göstərilən bu və digər alimlərin əsərlərində yeni dövrün şərtlərinə uyğun, o cümlədən qeyri-neft sektorunun inkişafının daha çox üstünlük təşkil etdiyi şəraitdə aqrar sahədə tədarük sisteminin inkişafı və dövlət tənzimlənməsi məsələləri yetərincə və ətraflı tədqiq olunmamış, xüsusən də kənd təsərrüfatı məhsulları istehsalçılarını bu istiqamətdə narahat edən

çoxsaylı məsələlər lazımınca araşdırılmamışdır. Məhz buna görə də qeyd edilən məsələlərin aktuallığını nəzərə alaraq, mövcud dissertasiya işində həmin məsələlərin ətraflı tədqiq olunması zərurəti yaranmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi aqrar sənaye kompleksinə daxil olan müəssisələr seçilmişdir. Tədqiqatın predmetini aqrar sənaye müəssisələrində tədarük yönümlü subyektlər, bu məqsədlə dünya təcrübəsinin öyrənilməsi, tədarük prosesinin effektiv həyata keçirilməsinin ölkə iqtisadiyyatına təsiri, strateji məhsullar üzrə dövlət dəstəyinin həyata keçirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi aqrar sahədə dövlət tənzimlənməsinin mahiyyəti, əsas prinsipləri və yollarının nəzəri metodoloji əsaslarının araşdırılması, bu prosesin mühüm amili kimi tədarük sisteminin məzmun elementlərinin nəzərdən keçirilməsi, göstərilən istiqamətdə tədarük fəaliyyətinin mövcud vəziyyətinin geniş təhlil edilərək qiymətləndirilməsi, bunlarla yanaşı, bazar iqtisadi münasibətlərinin mövcud tələblərinə uyğun aqrar tədarük sisteminin daha da təkmilləşdirilməsinin prioritet istiqamətlərinin müəyyən edilməsidir.

Yuxarıda göstərilən məqsədə nail olmaq üçün, aparılan tədqiqat prosesində aşağıda qeyd edilən vəzifələr qarşıya qoyulmuş və ardıcıl şəkildə yerinə yetirilmişdir:

-dövlət tənzimlənməsinin mahiyyəti və məzmun elementləri əsaslı şəkildə araşdırılmış;

-aqrar sahədə anoloji fəaliyyət prosesinin əsas prinsipləri və yolları müəyyən edilmiş;

-aqrar sahədə dövlət tənzimlənməsi proseslərinin əsas amillərindən biri kimi tədarük sisteminin inkişafı əhatəli tədqiq olunmuş, bununla yanaşı, həmin istiqamətdə keçmiş və mövcud durum, həmçinin bir sıra ölkələrin əldə etdikləri müvafiq təcrübə öyrənilmiş;

-ölkə iqtisadiyyatının prioritet əhəmiyyətli sahələrindən biri olan aqrar sahənin mövcud vəziyyəti ətraflı tədqiq olunmuş;

-aqrar sahənin dövlət tənzimlənməsində tədarük sisteminin müasir vəziyyəti təhlil edilərək qiymətləndirilmiş;

-aqrar tədarük sisteminin bazar tələblərinə uyğun inkişafının sürətləndirilməsi istiqamətləri düzgün müəyyən olunaraq işlənib

hazırlanmış;

-göstərilən sahədə əlverişli aqrobiznes mühitinin səmərəli təşkilinin yüksəldilməsi və təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmiş;

-aqrar sahədə tədarük sisteminin davamlı inkişafı ilə bağlı aqrar sahibkarlıq fəaliyyətinin modernləşdirilməsi əsaslandırılmış və s.

**Tədqiqat metodları.** Elmi işin həyata keçirlməsində müşahidə, müqayisə, analitik iqtisadi təhlil, iqtisadi statistika, induksiya və deduksiya, eyni zamanda ekonometrik təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

**1.** Müasir dövrdə qeyri-neft sektorunun əsas və prioritet istiqamətlərindən biri hesab edilən aqrar sahənin daha sağlam və rəqabətyönümlüyünü təmin edən dayanıqlı inkişafın əsas meylləri gücləndirilməlidir;

**2.** Dövlət Proqramlarının düzgün icrası baxımından, aqrar sahədə yerli ixrac potensialının gücləndirilməsi və genişləndirilməsi, bu sahədə tədarük fəaliyyətinin xüsusi çəkisini, həmçinin səmərəlilik meyarlarının real həcmini artırır;

**3.** Aqrar sahədə tədarük qurumlarının və geniş istehsalçı subyektlərin qarşılıqlı prinsip və əlaqələrinin daha sıx uzlaşdırılması istiqamətlərinə uyğun olaraq, anoloji iqtisadi tənzimlənmə prosesinin daha da gücləndirilməsi mexanizminin əsas prinsiplərinin işlənib hazırlanması əhəmiyyətli rola malikdir.

**4.** Kənd təsərrüfatında tədarük sisteminin optimal formalaşdırılması və təkmilləşdirilməsinə dəstək verilməsi istiqamətində zəruri və dolğun tədbirlərin həyata keçirilməsi, eyni zamanda göstərilən fəaliyyətin düzgün təhlil olunması və qiymətləndirilməsi sisteminin qurulmasına ehtiyac vardır;

**5.** Aqrar sahədə tədarük fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinə uyğun olaraq, əlverişli aqrobiznes mühitinin genişləndirilməsi və səmərəli dövlət sahibkarlıq (eyni zamanda dövlət-özəl əməkdaşlığının) əlaqələrinin inkişaf etdirilməsi vacibdir.

**Tədqiqatın elmi yeniliyi:**

**1.** Dövlətin iqtisadiyyata təsiri, onların qarşılıqlı əlaqə mexanizmləri, xüsusən də bazar münasibətləri şəraitində dövlət

tənzimlənməsinin mahiyyəti, obyektiv əsasları və məzmun elementləri, forma və metodları, bu istiqamətdə çağdaş təmayüllər elmi nəzəri meyarlar baxımından təsnifləşdirilmiş və öyrənilmişdir;

**2.** Aqrar sahədə dövlət tənzimlənməsinin əsas mexanizmləri bu sahədə iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi baxımından araşdırılaraq dəyərləndirilmişdir;

**3.** Aqrar sahədə tədarük sisteminin bazar münasibətləri şəraitinə uyğun əsas fəaliyyət istiqamətləri müəyyən edilərək, onun başlıca və mühüm prinsipləri aşkarlanmışdır;

**4.** Çağdaş postneft dövrünün tələblərinə uyğun olaraq, milli aqrar iqtisadiyyatın mövcud durumu, onun səmərəli və dayanıqlı inkişafının əsas cəhətləri və xüsusiyyətləri göstərilmişdir;

**5.** Aqrar tədarük sisteminin səmərəli dövlət tənzimlənməsinə uyğun olaraq, onlar arasında qarşılıqlı etibar və etimada əsaslanan əlverişli, münbit şəraitin təşəkkül tapması, həmçinin istehsalçı məmnuniyyətini təmin edən tədarük sisteminin dayanıqlı inkişafının təmin edilməsi qanunauyğunluqları müəyyən olunmuşdur;

**6**. Aqrar sahədə tədarük qurumlarının və geniş istehsalçı subyektlərin qarşılıqlı prinsip və əlaqələrinin daha sıx uzlaşdırılması istiqamətlərinə uyğun olaraq, anoloji iqtisadi tənzimlənmə prosesinin daha da gücləndirilməsi mexanizminin əsas prinsipləri işlənib hazırlanmışdır;

**7.** Optimal tədarük qiymətlərinin müəyyən olunması ilə daxili bazarın yüksək keyfiyyətli və ekoloji təmiz məhsullarla təmin olunmasının səmərəli mexanizmi müəyyən edilmişdir;

**8**. Aqrar sənaye sahəsində tədarük prosesinin effektiv təşkil edilməsi üçün müvafiq infrastrukturların – biznes inkubatorlarının, klasterlərin, vençur fondlarının, istehsal və istehlak zəncirində iştirakı mümkün hesab edilən müxtəlif xidmət həlqələrinin formalaşdırılması əsaslandırılmışdır;

**9.** Aqrar sahədə tədarük sisteminin təşkili və idarə edilməsində müvafiq innovativ və korporativ idarəetmənin tətbiqinin zəruriliyi müəyyən edilmişdir;

**10.** Aqrar sahədə tədarük sisteminin daha da effektiv qurulmasına və onun tətbiqi imkanlarının genişləndirilməsinə təkan verən əlverişli aqrobiznes mühitinin formalaşdırılması istiqamətləri üzrə təklif və

tövsiyələr müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aqrar sahənin iqtisadiyyatı sahəsində tədqiqat aparan alimlərin elmi müddəaları, xarici iqtisadçı alimlərin aqrar sahədə tədarük sisteminə və bu sahədə dövlət tənzimlənməsi nəsələlərinə həsr edilmiş elmi tədqiqat işləri və s. təşkil edir. Dissertasiya işinin yerinə yetirilməsində Azərbaycan Respublikasının qanunlarından, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarından, fəaliyyət sahəsinə bilavasitə aid olan normativ-hüquqi aktlardan, o cümlədən Azərbaycan Respublikasında aqrar sahibkarlığın inkişafına dair dövlət dəstəyi proqramlarından istifadə edilmişdir.

Tədqiqat işindən əldə olunmuş nəzəri nəticələr aqrar sahənin iqtisadiyyatı, makroiqtisadiyyat, mikroiqtisadiyyat, ticarət, aqrar sahənin marketinqi fənnlərinin tədrisində, aqrar sahədə tədarük sisteminin inkişafı və dövlət tənzimlənməsi ilə bağlı problemlərin həll olunmasında, aqrar sahənin inkişafı ilə bağlı proqramların hazırlanmasında, eyni zamanda bu istiqamətdə dövlət müdaxiləsinin optimallaşması ilə bağlı qərarların qəbulunda istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Yerinə yetirilmiş tədqiqat işinin əsas müddəaları və əldə olunmuş nəticələr 13 (on üç) elmi məqalə və tezis formasında bir sıra elmi jurnal və nəşrlərdə dərc edilmiş, müxtəlif elmi-praktik konfrans və seminarlarda çıxış edilərək bəyənilmişdir. Tədqiqatın əsas nəticələri ölkədə ixtisaslaşmış 4 (dörd) elmi jurnalda, o cümlədən xaricdə nəşr olunmuş 2 (iki) elmi məqalə və 2 (iki) tezisdə əks olunmuşdur.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (7198 işarə), I fəsil (68357 işarə), II fəsil (97798 işarə), III fəsil (71319 işarə), nəticə (5328 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı olmaqla 127 səhifədən və 250 min işarə sayından ibarətdir. İstifadə edilmiş ədəbiyyat siyahısında 127 ədəbiyyat adı göstərilmişdir.

## MÜNDƏRİCAT

**GİRİŞ**

**IFƏSİL. AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ–METODOLOJİ ƏSASLARI**

1.1.Dövlət tənzimlənməsinin mahiyyəti və məzmun elementləri

1.2.Aqrar sahədə dövlət tənzimlənməsinin prinsipləri və yolları

1.3.Aqrar sahədə tədarük sisteminin inkişafı dövlət tənzimlənməsinin mühüm amili kimi

**II FƏSİL. AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1.Aqrar sahənin inkişafının mövcud durumu

2.2.Aqrar sahənin dövlət tənzimlənməsində tədarük sisteminin müasir səviyyəsinin qiymətləndirilməsi

**III FƏSİL. AQRAR SAHƏDƏ TƏDARÜK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

3.1.Tədarük sisteminin bazar tələblərinə uyğun inkişafının sürətləndirilməsi

3.2.Aqrar sahədə əlverişli aqrobiznes mühitinin səmərəli təşkilinin yüksəldilməsi

3.3.Tədarük sisteminin inkişafı ilə əlaqədar aqrar investisiya mühitinin modernləşməsi

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**MÜDDƏA 1. Müasir dövrdə qeyri-neft sektorunun əsas və prioritet istiqamətlərindən biri hesab edilən aqrar sahənin daha sağlam və rəqabətyönümlüyünü təmin edən dayanıqlı inkişafın əsas meylləri gücləndirilməlidir.**

Milli iqtisadiyyatın mühüm və prioritet sahələrindən biri hesab edilən aqrar sahənin məqsədli dövlət tənzimlənməsi – ilk növbədə dövlətin strateji maraqlarının uzlaşdırılmış formada təmin edilməsinə, həmçinin aqrar sahənin yeni dövrün tələblərinə uyğun daha modern və səmərəli inkişafının təmin edilməsinə əlverişli şərait yaradır.

Fikrimizcə, aqrar sahənin dövlət tənzimlənməsinin zəruriliyini əks etdirən ən vacib elementlərdən biri, ölkənin bu sahədəki özünütəminetmə səviyyəsi ilə bağlıdır. Bu, onunla bağlıdır ki, hər bir ölkə öz əhalisini zəruri olan əsas kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalını təşkil etməyə çalışmalıdır. Düzdür, həmin ölkənin təbii iqlim şəraitinə uyğun gəlməyən və buna görə də baha qiymətlərlə hazırlana biləcək (yaxud heç hazırlana bilməyəcək) məhsullarla təminat idxal hesabına ödənilməlidir. Bəzən də ola bilsin ki, müəyyən qiymət uyğunsuzluqları da baş versə də, bütövlükdə ərzaq və iqtisadi təhlükəsizlik baxımdan nəzərə alınmalıdır.

Göstərilən cəhətlər bu fikirləri söyləməyə imkan verir ki, aqrar sahənin özünü tənzimləməsi və aqrar sahənin dövlət tənzimlənməsi, həmçinin bu sahəyə dövlət yardımı arasında bağlılıqlar müəyyən şərtlərlə əlaqədardır. Göstərilən sahənin dövlət tənzimlənməsi və dövlət köməyinin (yardımının) vacibliyini təsdiq edən belə bir fakt göstərir ki, müəyyən fövqəladə hallarda (quraqlıq, hərbi toqquşma və s.) ən zəruri kənd təsərrüfatı və ərzaq məhsullarının alınması və əhalinin onlarla təmin olunması prosesləri ərzaq-iqtisadi milli təhlıükəsizlik prinsiplərinin həyata keçirilməsini sürətləndirir.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində aqrar sahənin mövcud durumu və davamlı inkişaf istiqamətləri bu sahədə səmərəli dövlət tənzimlənməsi kontekstində həyata keçirilir. Ümumi şəkildə, hər bir ölkədə bu mühüm sahənin dövlət tənzimlənməsinin məqsəd və vəzifələri həmin ölkənin inkişaf xüsusiyyətləri və spesifikasından

irəli gələn inkişaf konsepsiyası ilə müəyyən olunur. Aqrar sahənin dövlət tənzimlənməsinin əsas məqsədi dəyər zəncirinin bütün həlqələri üzrə fəaliyyət prosesində səmərəliliyə nail olmaq və dayanıqlı inkişafı təmin etməkdir.

Hazırda qeyri-neft sektorunun üstün inkişafının önəm kəsb etməsi və aqrar sahənin dayanıqlı inkişafı şərtlərinə uyğun olaraq, kənd təsərrüfatı məhsullarının tədarükü sisteminin inkişafı istiqamətində müəyyən işlər həyata keçirilməkdədir. Təbii ki, həmin proseslərin dövlət tənzimlənməsinin səmərəli təşkili və təkmilləşdirilməsi məsələlərinə daha optimal yanaşılmalı, cəmiyyət ehtiyaclarının tədarük əsasında xammal, məhsul, həmçinin ərzaq fondu kimi təşkilində yeni innovativ üsullardan istifadə olunmalıdır.

Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının tədarükü sisteminin daha effektiv fəaliyyət göstərməsi və onun dövlət tənzimlənməsinin mühüm elementi kimi sürətləndirilməsi istiqamətində daha düşünülmüş addımların atılması zəruridir.

Məlum həqiqətdir ki, qeyri-neft sektorunun üstün inkişaf etdiyi çağdaş şəraitdə aqrar sahədə elmi-texniki yeniliklər və innovasiyalar çox mühüm rol oynayırlar. Təbii ki, onlarsız göstərilən sahə dayanıqlı inkişaf etdirilə bilməz. Təəssüflər ki, göstərilən proseslərin səmərəli inkişafına mənfi təsir göstərən bir sıra amillər hələ də mövcuddur. Bu istiqamətdə məsələn, kənd təsərrüfatında mövcud texniki və texnoloji şəraitin müasir dövrün tələblərinə hələ də tam cavab verə bilməməsi, məhsul istehsalçılarının mövcud innovasiya və elmi-texniki yeniliklərin vaxtında əldə edilməsi istiqamətinə uyğun lazımi səviyyədə maraqların yaranmaması, yaxud aqrar innovasiya fəaliyyəti sahəsində iştirak edən tərəflərin səmərəli əlaqələrini, bunlarla yanaşı isə onların məsuliyyətini tənzimləyən lazımi qanunvericilik sənədlərin və normativ aktların çatışmazlığı və s.

**MÜDDƏA 2. Dövlət Proqramlarının düzgün icrası baxımından, aqrar sahədə yerli ixrac potensialının gücləndirilməsi və genişləndirilməsi, bu sahədə tədarük fəaliyyətinin xüsusi çəkisini, həmçinin səmərəlilik meyarlarının real həcmini artırır.**

Aqrar sahədə məhsul tədarükünün əsas vəzifəsi anoloji sahədə istehsalın optimal səviyyəsinin düzgün müəyyən olunması ilə

bağlıdır. Bu zaman məhsul tədarükü intervensiyası (müdaxiləsi) prosesindən də geniş istifadə edilir. Göstərilən proses aqrar sahənin həm səmərəli, həm də dayanıqlı inkişafına güclü təkan verərək, bu zaman dövlət qurumlarının aqrar sahəyə effektiv müdaxiləsinin mühüm parametrlərindən biri hesab olunur.

Ümumiyyətlə, aqrar sahədə tədarük intervensiyası kənd təsərrüfatı və ərzaq məhsullarının bazar qiymətlərinin dövlətin fəaliyyətdə olan təminatlı qiymətləri səviyyəsindən az olduğu (aşağı düşdüyü), həmçinin göstərilən sahədə məhsul istehsalçılarının hazırladıqları (bazara çıxarmaq istədikləri) məhsullara olan tələbin həcminin azaldığı hallarda həyata keçirilir. Bu zaman onun lazımi parametrlərə (şərtlərə) uyğun formada həyata keçirilməsi ilə bağlı bir neçə məqama diqqət yetirilməsi önəmlidir. Belə ki:

-tədarük intervensiyası-kənd təsərrüfatı məhsullarının həcminin çox olması (bolluğu) və eyni zamanda təklifin tələbi üstələməsi ilə bağlı olaraq, mövcud qiymətlərin göstəricilərinin aşağı düşməsinin qarşısını alaraq, daha dolğun və təminatlı qaydalara uyğun tədarük prosesinin həyata keçirilməsi prosesidir;

- tədarük intervensiyası mövcud aqrar bazarda tələbatdan yüksək olan kənd təsərrüfatı və ərzaq məhsullarına olan təklifin həcmini azaltmaq, həmçinin anoloji bazar konyunkturu göstəricilərini sabitəşdirmək, bununla yanaşı qiymət göstəricilərinin kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarına uyğunlaşdırılması məqsədilə həyata keçirilir.

Xüsusi vurğulamaq yerinə düşər ki, tədarük intervensiyasının əsas vəzifəsi aqrar sahədə zəruri məhsul ehtiyatlarının məqsədyönlü həcmdə və optimal səviyyədə təşkil edilməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, bu zaman zəruri məhsul ehtiyatlarının təşkil olunması tədbirləri dövlət qurumları tərəfindən daha səmərəli tənzimlənməlidir. Bu zaman dövlət tərəfindən aşağıda göstərilən tədbirlərin ilk növbədə həyata keçirilməsi mühüm hesab oluna bilər:

1)dövlətin məcmu tədiyyə balansında kənd təsərrüfatı məhsullarının həm idxalı, həm də ixracı arasındakı mənfi saldonun baş vermə şərtlərinin müəyyən olunması;

2)ölkədaxili məhsul istehsalçılarının zəruri iqtisadi parametrlərə uyğun olaraq, əlverişli şərtlərlə stimullaşdırılması;

3)milli aqrar bazarın və yerli məhsul istehsalçılarının rəqabət prosesinin baş verə biləcək mənfi tendensiyalardan və digər subyektiv amillərdən qorunması;

4)aqrar sahədə məhsulların təminatlı qiymətlərinin düzgün tətbiq olunması nəticəsində, kənd təsərrüfatı məhsullarının istehsalçıları ilə istehlakçıların mövcud maraqlarında əmələ gələn uyğunsuzluqların təsrinin aşağıı salınması və s.

Məlumdur ki, müasir dövrdə aqrar tədarük sahələrinin səmərəli və dayanıqlı inkişafı bilavasitə innovasiya fəaliyyətinin düzgün təşkili ilə sıx şəkildə bağlıdır. Bütövlükdə, aqrar sahədə innovasiya prosesləri modern təsərrüfatçılıq strukturlarının formalaşması və inkişafında, həmçinin adekvat tipli institusional prosesləri özündə tam ehtiva edir. Xüsusən də təsərrüfat subyektlərinin timsalında innovasiya prosesləri aqrar logistika, tədarük, eyni zamanda informasiya texnologiyaları istiqamətlərini daha çox birləşdirir.

Təbii ki, aqrar tədarük sistemində innovativ yeniliklərin daim diqqətdə saxlanılaraq düzgün tətbiq olunması mühüm əhəmiyyətə malikdir. Bu baxımdan hesab edirik ki, aqrar sahədə tədarük prosesinin bütün mərhələlərində mövcud innovasiya proseslərinin idarə olunması və bu fəaliyyətin müntəzəm şəkildə stimullaşdırılması istiqamətində əlverişli iqtisadi mexanizmin yaradılması zərurət kəsb edir.

Dövlətin aqrar siyasətinin işlək iqtisadı mexanizmlərı ilk növbədə kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrə yönəlir. Bu zaman əsas məqsəd kənd təsərrüfatı sahəsində mövcud problemlərin aradan qaldırılmasına istiqamətlənir. Dövlətin aqrar siyasəti kənd təsərrüfatında mövcud iqtisadi münasibətlərin tənzimlənməsinə istiqamətlənmiş tədbirləri özündə ehtiva edir. Bu proses kənd təsərrüfatı sahəsində istehsalın iqtisadi səmərəliliyinin artırılmasına da əhəmiyyətli təsir edə bilir. Ölkəmizdə kənd təsərrüfatında iqtisadi proseslərin tənzimlənməsinə yönəldilmiş tədbirlərin həyata keçirlməsi müxtəlif amillərlə əsaslandırlılr.

**MÜDDƏA 3. Aqrar sahədə tədarük qurumlarının və geniş istehsalçı subyektlərin qarşılıqlı prinsip və əlaqələrinin daha sıx uzlaşdırılması istiqamətlərinə uyğun olaraq, anoloji iqtisadi**

**tənzimlənmə prosesinin daha da gücləndirilməsi mexanizminin əsas prinsiplərinin işlənib hazırlanması əhəmiyyətli rola malikdir.**

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar sahə bütövlükdə iqtisadi mexanizmin mühüm tərkib hissələrindən biri hesab olunsa da, eyni zamanda özünəməxsus xüsusiyyətləri ilə digərlərindən fərqlənir. Bunu isə əsasən onunla izah etmək olar ki, müəyyən iqlim dəyişmələrinə tez və adekvat cavab verən bu sahə təbiət hadisələri ilə sıx şəkildə bağlıdır. Baş verə biləcək qəfil və gözlənilməz halları nəzərə alaraq, cəmiyyət üzvlərinin ən zəruri və həyati tələbatlarını ödəyən bu sahənin mənfi təzahürlərdən qorunması və onun inkişaf istiqamətlərinə xüsusi qayğı və diqqətin göstərilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, əksər dövlətlərdə kənd təsərrüfatı bilavasitə dotasiyalı sahə hesab edildiyi üçün, bu sahəyə dövlətin məqsədyönlü yardımı bir çox hallarda həyata keçirilir.

Göründüyü kimi, sərbəst bazar münasibətlərinin tələblərinə uyğun olaraq, aqrar sahənin məqsədyönlü tənzimlənməsində dövlətin xüsusi yeri və rolu mühüm əhəmiyyət kəsb edir. Vurğulandığı kimi, bu onunla bağlıdır ki, göstərilən fəaliyyət prosesində və aqrar sahənin inkişafı prosesində baş verə biləcək müəyyən böhran hallarının qarşısı alınaraq, sosial-iqtisadi stabilliyin əldə edilməsi və davamlı inkişafın təmin olunması zəruridir. Bunlarla yanaşı, yerli kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının gəlirlərinin yüksəlməsi, onların mövcud bazar situasiyalarına uyğun baş verən dəyişikliklərə çevik şəkildə adaptasiya olunması, ekoloji təmiz məhsulların istehsalı və emalı proseslərinin stimullaşdırılması və ən başlıcası isə, daxili bazarın qeyri-sağlam rəqabət proseslərinin əlverişsiz basqılarından daha səmərəli mühafizəsinin təmin olunması da böyük önəm kəsb edir.

Aparılan təhlillərdən göründüyü kimi, qloballaşma şəraitində aqrar sahənin dövlət tənzimlənməsinin əsas istiqaməti bu sahədə istehsal iqtisadi münasibətlərin yeni keyfiyyət müstəvisinə gətirilməsi yolu ilə daxili bazarın sabitliyinə və dayanıqlığına nail olunması, qeyd olunan sahədə dövlət himayədarlığının mütərəqqi forma və metodlarının seçilməsi və ölkənin beynəlxalq miqyasda öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə sıx bağlıdır.

Ümumiyyətlə, aqrar sahəyə dövlət müdaxiləsinin mühüm vəzifəsi mövcud iqtisadi, o cümlədən ixrac siyasətinin tənzimlənməsi və ölkəyə idxal olunan kənd təsərrüfatı və ərzaq məhsullarının bazar həcminin minimumlaşdırılması ilə bilavasitə əlaqədardır.

Göstərilən prosesdə diqqəti çəkən məqam ondan ibarətdir ki, aqrar sahədə dövlət tənzimlənməsinin sərhədləri və miqyasının müəyyənliyinə metodoloji cəhətdən optimal şəkildə yanaşmaq lazımdır. Çünki, həm dövlət, həm də bazar özünün səmərəli reallaşdıra biləcəyi funksiyaları üzərinə götürür. Lakin, özəl sektorun daha çox gəlir götürmək marağı və sosial-ekoloji səmərəliliyin bu sahədə bir o qədər də nəzərə alınmaması, dövlətin üzərinə əlavə məsuliyyətlər qoyur. Özəl sektordan fərqli olaraq belə bir şəraitdə dövlət üçün iqtisadi maraq ikinci dərəcəli vəzifəyə çevrilir. Dövlət aqrar sferada həmçinin, hər bir təsərrüfat subyekti üçün bərabər rəqabət mühiti yaratmaqla, firmaların işgüzar aktivliyinə müdaxilə etməməlidir. Yəni, bu o deməkdir ki, bazar mexanizmi ilə dövlət tənzimlənməsi sisteminin birgə fəaliyyəti dövlət müdaxiləsi olmadan tam reallaşa bilməz.

Hesab edirik ki, aqrar sahədə başlıca problem cəmiyyət üzvlərinin aqrar məhsula olan tələbatını yerli istehsal hesabına mümkün olduğu halda tam ödəyə bilməməsidir. Bu baxımdan göstərmək lazımdır ki, aqrar sferaya dövlətin dəstək və qayğısı keyfiyyətcə yeni mərhələyə keçməlidir. Belə ki, bu dəstək və qayğının əsas məzmunu öncəki illərdə olduğu kimi dövlətin faydalanma və gəlir götürmək məqsədi ilə yanaşmasından irəli gəlməlidir. Bu isə kifayət qədər mülkiyyət payı, maliyyə resursları, təbii resurslara çıxışı, iqtisadi siyasətlərin yürüdücüsü və ən nəhayət, beynəlxalq aləmlə geniş əlaqələri olan dövlətin problemlərin həllinə müdaxilə etməsi ilə mümkün olacaqdır. Bu zaman, dövlət sektorunun qarşısında duran başlıca vəzifələr aşağıda qeyd olunan məsələlərlə əhatələnməsi məqsədyönlüdür:

-ölkəyə idxal olunan kənd təsərrüfatı məhsullarının tərkibinin, keyfiyyətinin və digər göstəricilərinin dərindən öyrənilməsi və aqrar sferanın potensialı ilə müqayisə edilməsi;

-aqrar sfera ilə paralel kəndin sosial-iqtisadi vəziyyətini yaxşılaşdıran davamlı tədbirlər görülməsi;

-kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar dövlətin tətbiq etdiyi güzəştlər keyfiyyətcə yeni sistemə salınması və genişləndirilməsi;

-aqrar sahənin inkişafı üçün zəruri olan investisiya və lizinq xidmətlərinin genişləndirilməsinə dövlət təminatının artırılması, xüsusilə də qabaqcıl texnologiyaya əsaslanan xarici müəssisələrin göstərilən sferaya əlverişli şərtlərlə daxil olması və s.

Məsələn, anoloji məhsul növlərinin istehsalı, tədarükü, emal və satışı istiqamətləri üzrə əlverişli şəraitin formalaşdırılması, istifadə edilən vəsaitlərə qənaət rejiminin stimullaşdırılması, kənd təsərrüfatı və ətraf mühitin qorunması tədbirlərinin həyata keçirilməsi, bunlarla yanaşı isə kənd yaşayış məskənlərində zəruri infrastruktur obyektlərinin artırılması istiqamətində müxtəlif dövlət tənzimlənməsi tədbirlərinin həyata keçirilməsi kimi məsələlər mütəmadi olaraq həllini tapmalıdır.

**MÜDDƏA 4. Kənd təsərrüfatında tədarük sisteminin optimal formalaşdırılması və təkmilləşdirilməsinə dəstək verilməsi istiqamətində zəruri və dolğun tədbirlərin həyata keçirilməsi, eyni zamanda göstərilən fəaliyyətin düzgün təhlil olunması və qiymətləndirilməsi sisteminin qurulmasına ehtiyac vardır.**

Proseslərin səmərəli təşkil olunması və modernləşmə xüsusiyyətləri aqrar sahədə tədarükün innovativ üsullarla təşkilinin qanunvericilik bazasının daha düzgün formalaşmasına, onun yeni məzmunlu və modern menecmentinin təşəkkül tapmasına, həmçinin digər anoloji proseslərə öz tələblərini irəli sürür. Bəlli olduğu kimi, tədqiq olunan sahənin özünəməxsus xüsusiyyətləri əsas götürülməklə, aqrar sahədə tədarük prosesləri də spesifik formada baş verir. Məhz buna görə də, aqrar tədarük proseslərinin təkmilləşdirilməsi prosesində aşağıda göstərilənlərin nəzərə alınmasını mühüm hesab etmək olar:

-aqrar sahədə tədarük qurumlarının texniki və texnoloji təminatının daim modernləşdirilərək, onların mövcud səviyyələrinin daim yüksəkdə saxlanılması;

-aqrar tədarük prosesinin modern infrastruktur sistemlərinin düzgün formalaşdırılaraq daim inkişaf etdirilməsi;

-göstərilən sahədə intensiv innovasiya proseslərinin kompleks şəkildə inkişafının təmin olunmasına əlverişli şəraitin yaradılması;

-tədarük prosesində ekoloji cəhətdən təmiz və sağlam məhsulların qəbuluna üstünlük verilməsi;

-tədarük prosesi ilə bağlı mərkəzləşdirilmiş informasiya – məlumat şəbəkəsinin yaradılması və genişləndirilməsi və s.

Göründüyü kimi, aqrar tədarük sisteminin inkişaf etdirilməsi və daha da təkmilləşdirilməsində diqqəti cəlb edən əsas məqam –bu istiqamətdə lazımi elmi araşdırmaların həyata keçirilməsi və onların praktiki surətdə tətbiqi proseslərinin bir-biri ilə üzvi vəhdət təşkil etməsinə lazımi təkan verilməsiidir. Yəni anoloji prosesin nəzəri – praktiki bütövlüyünün təmin olunması strateji əhəmiyyətə malikdir. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı məhsullarının tədarükü sistemi təkcə həmin məhsulların alqı-satqısı ilə məhdudlaşmır, həm də səmərəli ərzaq təhükəsizliyinin təmin olunmasının başlıca şərtlərindən birini təşkil edir. Buna görə də, göstərilən istiqamətlərə uyğun aparılan elmi tədqiqatların əsas məğzini-regional xüsusiyyətlərin nəzərə alınması və müxtəlif təşkilati-hüquqi təsərrüfat formalarının ayrı-ayrı məhsul növləri üzrə iqtisadi qiymətləndirilməsi prosesinin indikatorlar sisteminin köməyi ilə öyrənilərək həyata keçirilməsi təşkil etməlidir. Əldə olunan nəticələr praktiki şəkildə aprobasiya edilərək, aqrar tədarük sahəsində fəaliyyət göstərən bütün təsərrüfat subyektləri üçün əsas normativ indikatorlar rolunu oynamalıdır.

Göstərilən istiqamətlərə uyğun şəkildə həyata keçirilən tədbirlər onu göstərir ki, aqrar sahədə tədarük sisteminin səmərəliliyinin yüksəldilməsinə yönəlmiş tədbirlər, ilk növbədə əmtəəlik (tədarük olunacaq, satlıq) məhsulun nəzərdə tutulan həcminin əsaslandırılmasını, onlar üçün təminatlı alış qiymətlərinin müəyyən edilməsini, müxtəlif inzibati və iqtisadi rayonlar üzrə dövlət tədarükünün səmərəli bölgüsünün aparılması və digərlərini əhatə edir. Lakin burada bir məqama da xüsusi diqqət yetirilməsi zəruridir. Nəzərə almaq lazımdır ki, tədqiq etdiyimiz sahədə yeni, bazar münasibətlərinin tətbiq edilməsi bu problemin iqtisadi, siyasi və sosial mahiyyətinə yeni və fərqli çalarlar əlavə etməklə, həm də keçmiş iqtisadi sistemdən bizə miras qalan və müəyyən mənada bu

gün də öz effektivliyini qoruyub saxlayan qabaqcıl metod və üsulların tətbiqi zərurətini özündə ehtiva edir.

Aqrar tədarük prosesində modern texnika və texnoloji proseslərin düzgün və məqsədyönlü şəkildə tətbiq olunması, həm də mövcud əmək fəaliyyətinin səmərəliliyiunin yüksəlməsinə də böyük təkan verir. Düzdür, həmin texnika və texnologiyalar əldə edilən iqtisadi səmərənin yüksəlməsinə böyük təkan versə də, lakin nəzərə almaq lazımdır ki, istənilən innovasiya prosesinin düzgün tətbiqi istiqamətində əsas məsələ-yeni texnika və texnologiyaların parametrlərinə uyğun istifadə imkanlarının praktiki şəkildə həyata keçirilməsidir. Sözsüz ki, yeni texniki proseslərin tətbiqi kortəbii və düşünülməmiş şəkildə baş verə bilməz. Bu zaman işçi qüvvəsinin, yaxud mütəxəssis kadrların əldə etdikləri bilik səviyyəsindən daha düşünülmüş şəkildə istifadə olunması da vacib hesab edilməlidir.

**MÜDDƏA 5. Aqrar sahədə tədarük fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinə uyğun olaraq, əlverişli aqrobiznes mühitinin genişləndirilməsi və səmərəli dövlət sahibkarlıq (eyni zamanda dövlət-özəl əməkdaşlığının) əlaqələrinin inkişaf etdirilməsi vacibdir.**

Proqnozlar aqrar sahədə tədarük sisteminin daha səmərəli və dayanıqlı inkişafı istiqamətində, mövcud olan kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan tədbirlər kompleksini ehtiva edir. O, əslində bütöv sistem kimi, tədarük fəaliyyətində çoxsaylı və müxtəlif məzmunlu tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu zaman, kənd təsərrüfatı məhsullarının tədarükü və hətta emalı proseslərinə qədər olan mərhələlərin də kompleks şəkildə nəzərdən keçirilməsi labüd hesab edilməlidir.

Aqrar tədarük sistemində anoloji strukturların, bununla yanaşı isə kənd təsərrüfatı məhsullarının tədarükü fəaliyyətinin normal, məqsədyönlü inkişafı - əsas etibarilə bu sahədə səmərəli hüquqi tənzimləmə sistemi və müvafiq infrastruktur elementlərinin kompleks şəkildə formalaşdırılması əsasında mümkün ola bilər.

Aqrar sahibkarlığın, o cümlədən aqrobiznes fəaliyyətinin keyfiyyət yönümlü inkişafına dair ardıcıl surətdə keçirilən məqsədyönlü tədbirlər və əlalxüsus onların fəaliyyətinin düzgün istiqamətlənməsi məqsədilə qəbul edilən qanunvericilik bazası – bu

sahədə məhsul həcminin artımına, eyni zamanda onun iqtisadi səmərəsinin yüksəldilməsinə real imkanlar yaratmışdır.

Aqrar sahəyə dövlət dəstəyi tədbirləri, o cümlədən vergi güzəştləri (torpaq vergisindən başqa), güzəştli kreditlərin və subsidiyaların verilməsi, aqrolizinq xidmətlərinin əhatə dairəsinin genişlədirilməsi və digər istiqamətlərdə tədbirlər, aqrar sektorun infrastruktur təminatını əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Cədvəl1-in məlumatlarının təhlilindən göründüyü kimi hər il kənd təsərrüfatı sahəsində aparlmış məqsədyönlü tədbirlər nəticəsində davamlı inkişaf qeydə alınmışdır.

Son illər kənd təsərrüfatı sahəsində istehsal olunmuş məhsul həcminə baxsaq görərik ki, 2017-ci ildə ölkədə kənd təsərrüfatı sahəsində 6,6 mlrd. manat, 2018-ci ildə 7 mlrd. manat, 2019-cu ildə 7,8 mlrd. manat məhsul istehsal olunmuşdur. 2025-ci ilə kimi ölkəmizdə kənd təsərrüfatı sahəsində məhsul istehsal həcminin proqnoz göstəricilərini MS Excel 2019 proqram paketinə görə hesablasaq görərik ki, kənd təsərüfatı sahəsində istehsal olunan məhsul həcmi 2024-cü ildə 10,6 mlrd. manat, 2025-ci ildə isə 11,2 mlrd. manat təşkil edəcəkdir. Qrafik 1-dən göründüyü kimi kənd təsərrüfatı üzrə məhsul istehsalının həcmi trend modelinə əsasən zaman amilindən asılı olaraq $y=0,5841x +6,0118$ reqressiya tənliyi ilə ifadə olunan xətti korrelyasiya əlaqəsi ilə tamamlanır.

Cədvəl1.

Azərbaycan Respublikasında kənd təsərrüfatının ümumi məhsulu (faktiki qiymətlərlə), mln. manat

| **İllər** | **Cəmi** | **Bitkiçilik məhsulu** | **Heyvandarlıq məhsulu** |
|---|---|---|---|
| 2015 | 5635,3 | 2761,1 | 2874,2 |
| 2016 | 5632,4 | 2577,2 | 3055,2 |
| 2017 | 6580 | 3019 | 3561 |
| 2018 | 7010 | 3186 | 3824 |
| 2019 | 7836,7 | 3751,2 | 4085,5 |
| 2020 | 8428.9 | 4028.4 | 4400.5 |
| 2021 | 9163.4 | 4511 | 4652.4 |

**Mənbə:** www.stat.gov.az

Müvafiq korrelyasiya əmsalının R=1 olması y asılı dəyişəni ilə modelə daxil olan amilləri ifadə edən sərbəst dəyişənlər arasında əlaqənin güclü olduğunu göstərir. Determinasiya əmsalının $R^2=1$ olması o deməkdir ki, müvafiq reqressiya tənliyi tam dispersiya nəticə göstəricilərinin təsiri ilə izah olunur. Təhlil onu göstərir ki, ölkəmizdə regionlarda iqtisadi rayonlar da daxil olmaqla aqrar məhsul istehsal həcminin yaxın illərdə artma tendensiyası müşahidə olunacaqdır. İnkişafının dəstəklənməsi zəruri hesab olunan aqrar sahədə gözlənilən bu nəticələr sahəyə növbəti illərdə də mövcud yanaşmanın miqyasının bir qədər də genişləndirilməsini əsaslandırır.

Mühüm bir məqamı da yaddan çıxarmayaq ki, ölkədə istehsal və tədarük edilən kənd təsərrüfatı məhsullarının qlobal bazarlarda yüksək rəqabət qabiliyyətli mövqe qazanması üçün ekoloji amildən səmərəli istifadə etmək mühümdür. Bu həm də günün reallığıdır.




**Mənbə:** Qrafik müəllif tərəfindən son illər üzrə tərtib olunmuş statistik göstəricilər əsasında aparılmış hesabata əsasən MS Excel 2019 proqram paketinə əsasən tərtib olunmuşdur.

**Qrafik1.** Azərbaycan Respublikasında yaxın illəri əhatə edən kənd təsərrüfatı sahəsində istehsal olunacaq məhsulun həcmi üzrə proqnoz göstəriciləri (mlrd. manatla)

Son illər kənd təsərrüfatı məhsullarının tədarükü sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində (soyuducu anbarların tikilməsi, yeni bazarlara çıxış, logistik imkanlar və s.) kənd təsərrüfatı məhsullarının tədarükü və təchizatı işlərində yeni münbüt şərait yaranmışdır. Bu istiqamətdə növbəti illərdə də müsbət tendensiyanın davam edəcəyi gözlənilir.

Aqrar sahədə tədarük strukturlarının maliyyə investisiya imkanlarının yeni dövrün tələblərinə uyğun yaxşılaşdırılması istiqamətində təxirəsalınmaz işlər görülməli, konkret addımlar atılmalıdır. Göstərilən istiqamətlərə uyğun həyata keçirilən tədbirlərlə bağlı, ilk növbədə, onların əldə etdikləri mənfəət və əlavə dəyər vergisi dərəcələrinin optimal səviyyədə azaldılmasının müsbət nəticə verə biləcəyi şübhəsizdir. Qeyd edək ki, həmin tədbirlər həm tədarük qurumlarının mənfəət göstəricilərinin artmasına, həm də dolayı yolla büdcəyə ödənilən mənfəət vergisinin həcminin yüksəldilməsinə öz müsbət təsirini göstərə bilər.

Azərbaycanda kənd təsərrüfatının inkişafı üzrə yönəldilmiş investisiyalar ilə kənd təsərrüfatı üzrə istehsal olunmuş illik məhsulun dəyəri arasında trend xəttinin ekonometrik təhlili onu göstərir ki, onlar arasında y=0.1983x-711,65 reqressiya tənliyi ilə ifadə olunan xətti korrelyasiya əlaqəsi vardır (Qrafik2.). Müvafiq korrelyasiya əmsalının R=0.93 olması y asılı dəyişəni ilə modelə daxil olan amilləri ifadə edən sərbəst dəyişənlər arasında əlaqənin güclü olduğunu göstərir. Determinasiya əmsalının $R^2$=0.873 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 87,3% dispersiya nəticə göstəriciləri ilə, 12,7% isə digər amillərin təsiri ilə izah olunur. Determinasiya əmsalının yüksək olması reqressiya tənliynin tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (87,3%) modelə daxil olan amillərin hesabına izah edilməsi ilə bağlı olduğunu göstərdiyini qeyd etmək zəruridir.

Təhlil onu göstərir ki, ölkəmizdə kənd təsərrüfatı sahəsinin inkişafına investisiya qoyuluşları artdıqca, kənd təsərrüfatı sahəsi üzrə məhsul istehsal həcmi də artır.

Aparılan müşahidə və təhlillər onu göstərir ki, aqrar sahədə investisiya vəsaitləri qoyuluşunun kəmiyyət və keyfiyyət göstəricilərinə əsas fondların tərkibi, ixtisaslaşma səviyyəsi, eyni

zamanda aqrar təsərrüfat subyektinin hansı zonada (təbii iqtisadi ərazidə) yerləşməsi və digər amillər də mühüm təsir göstərir. Sözsüz ki, aqrar sahənin hər bir bölməsinin özünəməxsus xüsusiyyətlərinin və mövcud təbii-iqlim amillərinin də nəzərə alınması mühüm şərtdir. Bu baxımdan, bitkiçilik və heyvandarlıq sahələrinin spesifik cəhətlərini nəzərdən keçirmək pis olmazdı. Məsələn, bitkiçilik məhsulları üzrə ixtisaslaşan aqrar təsərrüfat subyektlərində əsas fondlar, əsas etibarilə bir sıra elementlərdən ibarətdir. Lakin onların içərisində, həmin istiqamətə dair mövcud mexanikləşdirmə vəsaitlərinin çəkisi nisbətən yüksəkdir.




**Qrafik2.** Azərbaycan Respublikasında son illər üzrə kənd təsərrüfatı sahəsində istehsal olunmuş məhsulun dəyəri ilə bu sahəyə yönəldilən investisiyalar arasında korrelyasiya (ekonometrik) əlaqəsi (mln. manatla)

Aqrar sahədə iqtisadi fəaliyyət növlərinin, o cümlədən tədarük sisteminin zəruri maliyyə - investisiya vəsaitləri ilə səmərəli təmin olunmasında İqtisadiyyat Nazrliyi yanında Sahibkarlığın İnkişafı

Fondunun (SİF, hazırda Azərbaycan Biznesinin İnkişafı Fondu) rolu da vacib və əhəmiyyətlidir. Xüsusilə vurğulamaq yerinə düşər ki, fond dövlətin mövcud iqtisadi siyasətinin düzgün həyata keçirilməsində fəal iştirak etməklə, iş adamlarına, xüsusən də aqrar sahibkarlara güzəştli kreditlərlə lazımi maliyyə dəstəyinin göstərilməsi, müxtlif sahələrdə, o cümlədən aqrar sahədə investisiya layihələrinin maliyyələşdirilməsi sahəsində konkret istiqamətlərin təşviq edilməsi, ölkə regionlarında sahibkarlığın inkişafına həsr olunan tədbirlərin aparılması, aqrar sahibkarlığın informasiya təminatının gücləndirilməsi, modern texnologiyaların tətbiqi, rəqabət gücünə malik olan, o cümlədən ixrac yönümlü və idxalı əvəz edən məhsulların istehsalı, tədarükü və emalını nəzərdə tutan, bu sahələrin inkişafına dəstək verən infrastruktur layihələrin maliyyələşdirilməsinə uyğun olaraq, son illərdə uğurlu fəaliyyət aparmışdır. Aşağıda SİF-in son ildə verdiyi kreditlərin sahələr üzrə struktur bölgüsünü əks etdirən diaqram verilmişdir:




**Şəkil1.** Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2021-ci il ərzində verilmiş güzəştli kreditlərin sahələr üzrə bölgüsü (yeni iş yerləri üzrə)

Şəkil1-dən göründüyü kimi, SİF tərəfindən verilən kreditlərin böyük əksəriyyəti, yəni 79,3%-i aqrar sektorun, 15,2%-i sənaye sahələrinin, qalan 6%-i isə digər sahələrin payına düşmüşdür.

Tədqiq etdiyimiz sahənin investisiya resursları ilə səmərəli təmin olunmasında mühüm rol oynayan maliyyə mexanizmlərindən biri də səmərəli sığorta sisteminin mövcudluğudur. Aqrar sahədə məhsul istehsalı, tədarükü və emalının lazımi səviyyədə inkişafını təmin edən etibarlı maliyyə sisteminin formalaşması, bununla yanaşı kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının baş verə biləcək müxtəlif hadisələrin mənfi təsirindən müdafiə sisteminin qurulması düzgün sığorta sisteminin yaradılmasını obyektiv zərurətə çevirir. Nəzərə almaq lazımdır ki, aqrar sığorta fəaliyyəti mühüm maliyyə mənbəyi olmaqla yanaşı (dəymiş zərərlərin kompensasiya edilməsi), digər maliyyə vəsaitlərinin də vaxtında cəlb edilməsinə və yüksək investisiya imkanlarına şərait formalaşdırır.

Müasir şəraitdə aqrar tədarük fəaliyyətində düzgün sığorta sisteminin formalaşdırılması bu istiqamətlərə uyğun mövcud risklərin səviyyəsinin aşağı salınması, həmçinin normal sığorta bazarının dövlət tənzimlənməsindən də əhəmiyyətli dərəcədə asılıdır. Müasir şəraitə uyğun olaraq, aqrar sığorta sisteminin mövcud proseslərə uyğun olan daha səmərəli inkişafını təmin etmək üçün, ilk öncə elmi nöqteyi – nəzərdən tam əsaslandırılmış, eyni zamanda mövcud real şəraitə uyğun gələn və beynəlxalq standartlara cavab verən modern sığorta sisteminin davamlı inkişaf qaydaları işlənib hazırlanaraq, konseptual şəkildə aqrar sahədə tədarük sisteminin inkişafına dair hazırlana biləcək yeni qanunvericilik aktlarının müvafiq bölmələrindən birini təşkil etməlidir.

Aqrar tədarük sisteminin sağlam inkişafı və təkmilləşdirilməsində, o cümlədən bu prosesdə investisiya resurslarından daha səmərəli istifadə olunmasında aqrolizinq münasibətləri də mühüm yer tutur.

# NƏTİCƏ

Nəticə olaraq aşağıdakılar müəyyənləşdirilmişdir:

1. Aqrar sahədə tədarük sistemini yeni dövrün tələblərinə uyğun düzgün və səmərəli təşkil etmək üçün bazar münasibətləri şəraitində baş verən sosial –iqtisadi proseslərin dəyişmə tendensiyası və özünəməxsus xüsusiyyətlərinə uyğun olaraq iqtisadiyyata təsirinin daha səmərəli üsul və metodlarının hazırlanmasına ehtiyac vardır.

2. Bazar münasibətləri şəraitində dövlətin yürütdüyü iqtisadi siyasət ilə dövlət tənzimlənməsi tədbirlərinin bütöv və uzlaşdırıcı mexanizmi olsa belə iqtisadiyyatın dövlət bölməsi ilə özəl bölmə arasında daha səmərəli əlaqələrin və daha müasir modelin qurulmasına ehtiyac vardır.

3. Aqrar sahədə dövlət tənzimlənməsinin prinsipləri və yollarının təhlili göstərir ki, müasir şəraitdə istər qlobal şərtlərə uyğun, istərsə də milli (ölkə -daxili) səviyyədə tədqiq edilən sahəyə dövlət təsiri böyük əhəmiyyət kəsb etməklə, ona yanaşma tendensiyası və baxış bucağı getdikcə dəyişir. Bu dəyişiklik, əslində yüksək keyfiyyətyönümlü tədbirlərin geniş tətbiqini özündə əks etdirir. Yuxarıda göstərilənləri nəzərə alaraq, yüksək keyfiyyət parametrli bir sıra tədbirlərin aparılması zəruridir.

4. Kənd təsərrüfatı məhsullarının tədarükü məsələsi uzun tarixi keçmişə malik olsa da, bazar münasibətləri şəraitində bu fəaliyyətin düzgün təşkil olunması prosesinin yeni məzmun çalarlarının aşkara çıxarılması zərurət kəsb edir. Bunlarla yanaşı, mövcud iqtisadi münasibətlər dövrünün mövcud şərtlərinə uyğun olaraq, aqrar sahədə tədarük sisteminin səmərəli menecmenti və metodoloji əsasları tam şəkildə təşəkkül tapmayaraq, inkişaf etməmişdir.

5. Kənd təsərrüfatında təşəbbüskarlıq fəaliyyəti və sahibkarlığın inkişafına lazımi şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, bu gün aqrar sahə, xüsusən də tədarük fəaliyyəti müasir iqtisadi proseslərdə öz funksiyasını tam olaraq icra etməkdə bəzi problemlər yaşayır. Xüsusən də, institutsional, iqtisadi, texniki-texnoloji və digər yönlər üzrə tədbirlərin həyata keçirilməsi zərurət kəsb edir. Aqrar sahənin dövlət

tənzimlənməsində tədarük sisteminin müasir səviyyəsinin qiymətləndirilməsi meyllərini təhlil edərək, bu qənaətə gəlmək mümkündür ki, göstərilən istiqamətə uyğun müəyyən tədbirlər həyata keçirilsə də, görüləsi işlər hələ çoxdur.

6. Ölkə iqtisadiyyatının qeyri- neft sektorunun dayanıqlı inkişafına üstünlük verildiyi müasir şəraitdə aqrar sahənin inkişafının mövcud durumunun təhlili göstərir ki, son zamanlar bu istiqamətlərdə əhəmiyyətli addımlar atılmaqla, hüquqi, təşkilati (modern idarəetmə), texniki və digər istiqamətlərdə mühüm tədbirlər həyata keçirilir. Ölkə regionlarında aqrar sahənin daha səmərəli və günün tələblərinə cavab verən şəkildə inkişaf etdirilməsi, yerlərdə mövcud potensialın iqtisadi dövriyyəyə düzgün cəlb olunması və bir sıra xüsusiyyətlərə uyğun şəkildə istifadə edilməsi, həmçinin dövlətin həyata keçirdiyi tənzimləmə tədbirlərinin effektiv təsir mexanizmlərinin işlənib hazırlanması müşahidə edilir.

7. Aqrar tədarük sisteminin bazar tələblərinə uyğun inkişafının daha da sürətləndirilməsi və bu fəaliyyətin daim modernləşdirilməsi gündəlikdə duran məsələlərdəndir. Göstərilən istiqamətlərə uyğun olaraq aqrar tədarük sistemində sağlam rəqabət mühitinin formalaşdırılaraq davamlı inkişafı və baş verə biləcək lokal inhisarçılıq meyllərinin tam aradan qaldırılması reallaşmamışdır.

8. Aqrar sahədə düzgün və əlverişli aqrobiznes mühitinin səmərəli təşkilinin yüksəldilməsi – tədarük prosesinin modern inkişafına təkan verən mühüm istiqamətlərdən biri hesab olunur. Buna görə də, aqrobiznesə dəstək, onun səmərəli fəaliyyətinin genişləndirilməsi və aqrobiznes mühitinin səmərəli təşkil olunması üçün, ilk növbədə bu sahə ilə bağlı olan normativ-hüquqi bazanın təkmilləşdirilməsi qismən həyata keçirilir.

9. Tədarük sisteminin inkişafı ilə bağlı aqrar investisiya mühitinin modernləşməsi tədbirlərinin sürətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, bütövlükdə aqrar investisiya prosesləri modern təsərrüfatçılıq strukturlarının təşəkkülü və inkişaf etməsində anoloji tip maliyyə - investisiya proseslərini özündə

birləşdirir. Buna görə də, göstərilən istiqamətlərə uyğun tədbirlərin həyata keçirilməsinə ciddi ehtiyac duyulur.

## TƏKLİFLƏR

Tədqiqat sonunda əldə edilmiş nəticələr nəzərə alınaraq aşağıdakı səmərələşdirici təkliflər verilə bilər:

1. Aqrar sahədə tədarük sisteminin yeni dövrün tələblərinə uyğun bazar münasibətləri şəraitində baş verən sosial – iqtisadi proseslərin dəyişmə tendensiyası və özünəməxsus xüsusiyyətlərinə uyğun olaraq, dövlətin iqtisadiyyata təsirinin daha səmərəli üsul və metodları işlənib hazırlanaraq tətbiq edilməli və göstərilən istiqamətlərdə dövlətin yürütdüyü iqtisadi siyasət ilə dövlət tənzimlənməsi tədbirlərinin bütöv və uzlaşdırıcı mexanizmi düzgün təmin olunmalıdır.

2. Aqrar sahədə yüksək səmərəli aqrobiznes tədbirlərinin düzgün müəyyən edilərək, onların davamlı qaydada təşkili və təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsi, aqrar sahədə məhsulun dəyər zənciri üzrə inkişaf etdirilməsində dövlət dəstəyinin innovativ meyarlar əsasında müntəzəm şəkildə yenilənməsi vacibdir;

3. Kənd təsərrüfatı və ərzaq məhsullarını istehsal edən fiziki və hüquqi şəxslərin mövcud fəaliyyətlərini daha da stimullaşdırılaraq, onların gəlirlərinin yüksəlməsinə hərtərəfli şəraitin yaradılması və kənddə yaşayan əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və qazanc əldə etmək imkanlarının sürətləndirilməsi məqsədilə, yerli şəraitə (mühitə) uyğun digər stimullaşdırıcı tədbirlərin vaxtında görülməsi tədarük sisteminin inkişafını təmin edər.

4. Kənd təsərrüfatının davamlı inkişafı və keyfiyyətli məhsulların istehsal həcminin artırılması istiqamətində dövlətlə aqrar sahənin istehsal, emal, xidmət və s. qurumları arasında qarşılıqlı etimada söykənən münbit şəraitin formalaşması və inkişafı əsasında bu sahənin dayanıqlı inkişafının təmin edilməsi, həmçinin yerli məhsul istehsalçılarının mənafelərinin müdafiəsi üçün fiskal və monetar

siyasət tədbirlərinin maksimum şəkildə yüksəldilməsi nəzərə alınmalıdır.

5. Aqrar sahədə məhsulların tədarükünün keyfiyyət səviyyəsinin tam təmin edilməsi, kənd təsərrüfatı məhsullarının tədarükü prosesinin stimullaşdırılması və genişləndirilməsi, həmçinin dövlət (büdcə) təşkilatlarının ərzaq məhsullarına ehtiyacının ödənilməsi məqsədi ilə zəruri hallarda idxal-ixrac əməliyyatları həyata keçirilməli, kənd təsərrüfatı və ərzaq məhsulları vaxtında tədarük edilərək, düzgün saxlanılmalı və tələbatçıların təchiz olunmasının modernləşdirilməsi imkanları genişləndirilməlidir.

6. Aqrar tədarük sistemində ekoloji cəhətdən saf, təmiz və daha sağlam kənd təsərrüfatı məhsullarının qəbul olunmasına, modern tədarük sistemi ilə bağlı çevik və operativ informasiya–məlumat sistemləri şəbəkəsinin genişləndirilməsinə və təkmilləşdirilməsinə ehtiyac vardır.

7. Aqrar sahədə düzgün və əlverişli aqrobiznes fəaliyyəti sahəsində iqtisadi təşəbbüskarlığı motivasiya edən stimullaşdırıcı tədbirlərin genişləndirilməsi və bununla bağlı olaraq, zəruri maliyyə - investisiya yardımlarının həyata keçirilməsi istehsalın genişlənməsinə səbəb olar.

8. Dünya miqyasında aqrar tədarük strukturlarının daha səmərəli və modern formalarının, xüsusən də anoloji özəl subyektlərin təcrübəsindən yararlanaraq, onların ölkəmizdə təşkil olunmasına uyğun mövcud daxili investisiyalarla yanaşı, xarici investisiya resurslarından da mümkün istifadə imkanları nəzərdən keçirilməlidir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1.Orucova H.Ə.Çoxşaxəli inkişaf proqramında aqrar sahənin səmərəli inkişafı naminə. // GDU, Gənc alimlərin I Beynəlxalq elmi konfransı, I hissə. Gəncə 2016, səh. 156-157;

2.Orucova H.Ə.Aqrar sahədə tədarük-təchizat sisteminin təkmilləşdirilməsi istehsalı və emalı stimullaşdırır. // GDU, Gənc alimlərin II Beynəlxalq elmi konfransı, Gəncə 2017, səh. 126;

3.Orucova H.Ə.Aqrar sahədə tədarük sistemi dövlət tənzimlən-məsinin mühüm amili kimi. // GDU,Elmi xəbərlər, №2.

Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə 2018, səh. 63-67;

4.Orucova H.Ə.Aqrar sahədə dövlət tənzimlənməsinin regional xüsusiyyətləri. GDU,Elmi xəbərlər, №3. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə 2018, səh. 29-33;

5.Orucova H.Ə.Tədarük və təchizat milli iqtisadiyyatın strateji yol xəritəsinin əsas istiqamətlərindən biri kimi. // GDU, Beynəlxalq elmi konfrans, IV hissə. Müasir Təbiət və İqtisad elmlərinin aktual problemləri.Gəncə 2018, səh. 264-267;

6.Оруджева Х.А. Формирование и пути развития системы заготовки в аграрном секторе. Одеский національный економічний университет, Науковий вісник. Ukraina 2019, стр. 135-147;

7.Orucova H.Ə.Aqrar sahədə tədarük sisteminin formalasması və inkisafı istiqamətləri. GDU,Elmi xəbərlər, №1. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə 2019, səh. 47-52;

8. Orucova H.Ə. Aqrar sahədə tədarük mexanizminin bazar tələblərinə uyğun inkişafı məsələləri. VII International scientific conference Personality and society: problems of interaction, Ardahan, Turkey 2020, pg.189-194;

9.Orucova H.Ə. Azərbaycan iqtisadiyyatının aqrar sahəsində tədarük və təchizat sisteminin rolu. Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi-praktiki jurnalı. Bakı 2021, səh.142-145;

10.Orucova H.Ə. Aqrar sahədə tədarük sisteminin formalaşmasında beynəlxalq təcrübənin rolu. Azərbaycan Dövlət Aqrar Universiteti, ADAU-nun elmi əsərləri, №1 Gəncə 2021,səh. 47-52;

11.Оруджева Х.А. Роль заготовки и снабжения сельхозпродуктов в рыночной экономике страны. Seoul Journal of Economics Institute of Korean Studies ( SCOPUS), Korean 2021, pg. 84-87;

12.Orujova H.A. The Role of Procurement and Supply of gricultural Products in the Market Economy of the Country, Vol3 №4 (2021) IJEFSD, pg. 77-82;

13.Orucova H.Ə. Aqrar sahədə tədarük sisteminə dövlət dəstəyinin zəruriliyi. // Azərbaycan Auditorlar Palatasının 25 illiyi

münasibətilə "Audit təşəkküldən təkamülə doğru problemlər ,yeni dövrün çağırışları"mövzusunda beynəlxalq elmi-praktik konfrans, Bakı 2021, , səh. 65-66.

Dissertasiyanın müdafiəsi 18 oktyabr 2024-cü il tarixində saat $11^{00}$-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu.

E-mail: economicscom az@gmail.com

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (https://economics.org.az) yerləşdirilmişdir.

Orucova H.J

Avtoreferat 14 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.09.2024
Kağızın formatı: A5
Həcm: 43314
Tiraj: 100 ədəd